# Tovuzda Ulu Öndər Heydər Əliyevin təhsil sahəsindəki xidmətlərindən danışılmışdır

**Tovuz Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının rayon təşkilatı və Qazax-Tovuz Regional Təhsil İdarəsinin Tovuz rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə "Azərbaycan təhsilinin inkişafında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri" mövzusunda tədbir keçirilmişdir.**

Ulu Öndərin abidəsini ziyarətlə başlayan tədbirdə çıxış edən YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov diqqətə çatdırmışdır ki, Ulu Öndər Heydər Əliyev hər zaman təhsili dövlətin və xalqın inkişafı üçün prioritet sahə kimi qiymətləndirib və onun təhsil sahəsində atdığı məqsədyönlü addımlar bu gün ölkəmizin uğurlu təhsil sisteminin əsasını təşkil edir. Nihad Pənahov əlavə etmişdir ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar, yeni təhsil müəssisələrinin yaradılması və təhsilin keyfiyyətinin artırılması istiqamətində atılan addımlar Ulu Öndərin ideyalarının davamı olmaqla gənc nəslin yüksək səviyyədə yetişməsinə böyük töhfə verir.

Sonra rayon icra hakimiyyəti başçısının müavini Təranə Bayramova çıxış edərək bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində gördüyü işlər ölkəmizin müasir inkişaf modelinin əsas sütunlarından biridir. "Təhsil cəmiyyətin rifahı və davamlı inkişafı üçün vacib sahə olduğu üçün bu sektorda çalışanların üzərinə böyük məsuliyyət düşür. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən təhsil proqramları və layihələr ölkəmizin dünya təhsil məkanında layiqli yer tutmasına hesablanıb və təhsil sisteminin müasirləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir".

Digər çıxış edənlər də Ulu Öndərin təhsil sahəsində gördüyü işlərin ölkəmiz üçün əhəmiyyətini qeyd etmiş və vurğulamışlar ki, Heydər Əliyevin xidmətləri müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, gənc nəsildə vətənpərvərlik və milli dəyərlərə hörmət hissinin formalaşması üçün möhkəm zəmin yaratmışdır.

Tədbirin sonunda bir qrup təhsil işçisinə təşəkkürnamələr  təqdim olunmuş və YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 22 may (№ 105).- S.12.